2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 84 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

# Q Ə R A R I

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aydın Əhməd oğlu Əbilov 2024-cü il sentyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı Qərarını mübahisələndirmiş, seçki dairəsinin əhatə etdiyi bəzi seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, A.Ə.Əbilov 2024-cü il sentyabrın 6-da qanun pozuntularının baş verməsi iddiası ilə 17 saylı Yasamal üçüncü seçki dairəsinin dairə seçki komissiyasına müracilət etmiş, bununla bağlı dairə seçki komissiyası 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı Qərarı ilə həmin müraciət şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, dairə seçki komissiyası müraciətin şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmək barədə qərar qəbul etməklə düzgün hüquqi nəticəyə gəlmişdir. Bu səbəbdən də A.Ə.Əbilovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli müracəti əsasız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 17 saylı Yasamal üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Aydın Əhməd oğlu Əbilovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 84 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 21/64 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |